# "O, sanki bu anı gözləyirdi..."

**Vətən müharibəsi şəhidi, neçə-neçə qəhrəmanlıq nümunəsi yazmış Babək Namazov haqqında doğmaları, dostları, onun qəhrəmanlığına şahidlik edən zabit və əsgərlər də bir-birindən maraqlı fikirlər səsləndiriblər. Həmin fikirlərdən bəzi seçmələri təqdim edirik...**



**Məmmədova Mehriban Qüdrət qızı, şəhid Namazov Babək Səhman oğlunun anası**

- Oğlum 1994-cü il may ayının 15-də, saat 17:35-də dünyaya gəldi. Əsas nə yada düşdü onun şəhid olduğu an. Yeni dünyaya gəlmiş, heç nədən xəbəri olmayan məsum körpə yatırdı. Ancaq onun yatmasını izləyərkən məni qəhər boğurdu, sanki uşağa nə isə olacağını hiss edirdim. Bu hiss məndə bir neçə dəfə təkrarlanmışdı.

İllər keçdi, keçirdiyim hiss unuduldu, ta ki, onun şəhid olduğu ana qədər. Deməli, artıq onun dünyaya gəldiyi an taleyi bəlli olmuşdu.

Babəkin uşaq vaxtı qeyri-adiliyi onun cəld, qıvraq, bir yerdə çox oturmağa qərarlı olmaması və hər bir şeyə də diqqətlə maraq göstərməsi idi. Soyuqdan qorxmazdı, qışda belə sərin geyinərdi və həmişə corabsız olardı.

Yeni dil açmağa başladığı vaxtlar ona pis söz söylətmək istəyirdilər, ancaq o, dilinə pis sözlər gətirməzdi. Pis söz danışmağın qadağa olduğunu deyərdi. Deyərdi ki, olmaz, mamam qoymur...

Əl qabiliyyəti çox yaxşı idi, "özün rənglə" ilə işlədikdə rəng çalarlarını düzgün seçər və konturdan kənara çıxmazdı...

Böyüdükdən sonra da hər hansı bir iş görərkən və ya hazırlayarkən onun çox dəqiqliklə ölçü və simmetriyasına diqqət edərdi. Çox şeyə maraq göstərdiyi üçün onu evdə tapmaq olmurdu. Daim həyətdə və yaxın olduğu uşaqlarla olardı. Nə isə yenilik etməyə çalışardı.

Beləliklə, Babək 2000-ci ildə 1-ci sinfə getdi. Oğlan uşağı olmağına baxmayaraq, oxumağa maraq göstərirdi. Ən cox sevdiyi fənn riyaziyyat idi.

Babək evin böyük uşağı idi. Sonra qardaşı Kamran və bacısı Şəms doğuldular. Qızımın sağ əli səhlənkarlığımız nəticəsində 1 yaşında yanmışdı. Müalicə və əməliyyat etdirdik, yaxşı nəticə vermədiyi üçün biz ailəliklə Moskvaya getdik. Bacılarım orda yaşayırdılar.

Beləliklə, Babək 2002-ci ildə ikinci dəfə Moskvada 1-ci sinfə getdi. Dili tez qavradı. Xalası qızı ilə bir sinifdə oxuyurdu. Sinif yoldaşları ilə ünsiyyət qurmağa çalışırdı.

Ailəmiz üçün mənzil tapmadığımıza görə bacımın evində yaşayırdıq. Bir dəfə Babək məktəbdən gələndə qardaş və bacısını çağırıb çantasından 2 ədəd şokolad çıxardı, birini yarı bölüb qardaşına və bacısına verdi. Digərini də özü üçün götürdü. Soruşanda, bildik ki, siniflərində uşaqlardan birinin ad günü imiş, o da sinif yoldaşlarına konfet gətirməklə ad gününü qeyd edib.

Məlumatlandıqdan sonra xalası öz qızından onun konfetlərinin harada olduğunu soruşdu. O isə - mən həmən an hər ikisini yedim, - cavabını verdi...

Onun da bacı və qardaşı var idi...

Biz xeyli vaxtdan sonra mənzil tapdıq, lakin bu mənzil başqa rayonda və çox uzaqda idi. Bu səbəbdən, Babək xalasının yanında qaldı ki, məktəbdən ayrılmasın. Birinci dəfə idi ki, Babək ailədən ayrı düşürdü. Şənbə, bazar və tətildə evimizə gəlirdi. İl tamam olandan sonra onu yaşadığımız mənzilin yaxınlığındakı məktəbin 2-ci sinfinə qəbul etdilər. Müəyyən yoxlama apardılar, 1 dəqiqədə neçə söz oxuduğunu bildilər, riyaziyyat tapşırıqları və şəkillər üzrə də məntiqini yoxladılar. Qənaətbəxş oldu.

Beləcə, biz 4 ilə yaxın Moskvada qaldıq. Bu illər ərzində Babək 3 məktəb dəyişdi. Həm də o, maraqlı davranışları ilə bizi cox təəccübləndirirdi. Məktəbdən evə gələndə deyirdi ki, qoy mən başqa istiqamətlə gedim, gəlib sizə çatacam. Səbəbini soruşanda, deyirdi: "Mənim üçün maraqlıdır, başqa istiqamətlərdən evə necə getmək olduğunu öyrənirəm".

O, dediyi kimi də edirdi və biz evə çatanda onun artıq evin qarşısında bizi gözlədiyini görürdük.

Hətta bir dəfə balaca olanda atası ilə Gəncədə dayısının evinə baş çəkməyə getmişdilər. Bir müddətdən sonra onun babasıgilə tək qayıtdığını gördükdə soruşdum ki, atan hanı? Dedi, mən tək gəldim, danxdım orda.

Mən bir anlıq həyəcanlı halda sorusdum ki, bəs yolu necə tapa bildin? Yolları keçmək sənin üçün çətin deyildimi? Cavabında getdiyimiz yolu geri qayıtdığını və yolu keçərkən diqqətli olduğunu, sağa-sola baxdığını dedi.

Atasının tək qayıtdığını gördükdə, - uşaq hardadı?, - dedik, - ilk sözü - gəlməyib ki? - oldu, - sonra əlavə etdi ki, artıq müstəqil olmağın vaxtıdı, qoy öyrənsin.

Bir dəfə də biz tramvayla gedərkən Babək - mən piyada gedəcəm, - dedi və yola düşdü. Biz dayanacağa çatanda artıq o, bizi orada gözləyirdi.

...O, bu hərəkəti ilə sanki kəşfiyyatçı oyunu oynayırdı.

2-ci sinifdə oxuyanda yenə evə gəlirdik, yolun kənarı ilə getməyimizə baxmayaraq, binaların arasında uşaq əyləncələri olan kiçik parklar görünürdü. Babək birdən mənə dedi ki, bilirsən, mama, mən böyüyəndə evimin həyətində bu oyun parkından hazırlayacam ki, uşaqlarım oynasınlar. - Çox yaxşı, - dedim. Fikirləşdim ki, biz valideynlər balalarımızın uşaq çağlarının maraqlı keçməsi üçün heç nə etməmişik. Heç olmasa, bura gəldik, tam başqa aləmlə tanış oldular.

7-10 yaş arasında - 4 il Babək nələr görmədi ki...

O təəssüratlar altında 2005-ci ilin martında biz qatarla geri qayıtdıq. Tədris ili tamam olmadığı üçün Babək Şəmkir rayonundakı Cahangir Rüstəmov adına orta məktəbin rus bölməsinin 4-cü sinfinə getdi.

Yeni tədris ilində isə öz kəndimizdəki məktəbin 5-ci sinfinə - Azərbaycan bölməsinə qəbul oldu. Dərslərə marağı azalırdı, biz də kənddəki nadinc uşaqlara meyl etməsin deyə onun Gəncəyə getməsi barədə məsləhətləşdik. Babəkin Gəncəyə getməsini özü üçün yaxşı hesab etdik və belə bir qərar verdik.

Babək tamam başqa uşaq idi. Demək olar ki, onu evdə tapmaq olmurdu. Şər qarışana qədər uşaqlarla oynayırdı. Bibisini çox istədiyi, həm də bibisinin həyat yoldaşından çəkindiyi üçün Babəki bibisinin yanına göndərdik və Gəncədəki Nizami adına 11 nömrəli orta məktəbdə təhsilini davam etdirdi.

Bu, o anlama gəlməsin ki, o müddət ərzində Babəklə əlaqəmiz olmadı. Əksinə, hər gün telefonla əlaqə saxladıq. Hətta bir dəfə məktəbdə qolunu sındırmışdı. Müalicəsini evimizdə etdirdik. 1 aya yaxın bizimlə oldu...

Həyat amansızdır. Hardan biləydik ki, elindən-obasından ayrı qala bilməyən Babək illər sonra əbədi olaraq hamımızdan ayrı düşəcək...

Müharibə başlananda Babəkin gözlərindəki sevinc hissini sözlə təsəvvür etmək mümkün deyildi. O, sanki bu anı gözləyirdi...

Balam arzusuna çatdı. Döyüşlərdə şücaət göstərdi, torpaqlarımız uğrunda mərdliklə savaşdı. Vətən müharibəsinin qəhrəman döyüşçülərindən birinə çevrildi. Cəbrayıl istiqamətində şəhid oldu. Hamıdan çox sevdiyi Vətən üçün cahından keçdi. Bəlkə də ağlı kəsəndən içində gəzdirdiyi arzuya çatdı. Biz yerdə qaldıq, o, göyə yüksəldi.

İndi bəlli ki, onun bizdən ötrü narahat ruhu səmalarda işıq kimi-bərq vurur. Daha nə deyim. Övlad itkisi valideyn üçün çox ağırdır. Lakin Babək torpaqlarımız uğrunda şəhid olub. Onun hünəri mənim üçün bir qəhrəmanlıq salnaməsidir...

***(Ardı var)***

***Hikmət Məlikzadə***